*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 iyul 2018-ci il № 50 (2266) Qiymətı 25 qəpik

## Azərbaycan Ordusunda genişmiqyaslı təlimlər başlayıb



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, iyulun 2-də Azərbaycan Ordusunun müxtəlif qoşun növləri, qismləri, birlik və birləşmələrinin iştirakı ilə genişmiqyaslı təlimləri başlayıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərə 20.000 nəfərədək şəxsi heyət, 120-dək tank və digər zirehli texnika, 200-dən artıq müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 30-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunub.

İyulun 6-dək davam edəcək təlimlərdə döyüş əməliyyatlarının aparılmasının müasir təcrübəsi nəzərə alınmaqla qoşunlar müxtəlif növ qoşun əməliyyatlarının keçirilməsi, o cümlədən şərti düşmənə yüksək dəqiqlikli silah sistemlərinin etibarlı raket, artilleriya, bomba-hücum, eləcə də aviasiya və pilotsuz uçuş aparatları (PUA) ilə atəş zərbələrinin endirilməsi, həmçinin genişmiqyaslı hücum əməliyyatının keçirilməsi ilə işğal edilmiş ərazilərin azad edilməsi üzrə tapşırıqları yerinə yetirəcək.

* * *

Genişmiqyaslı təlimlərin planına əsasən həyəcan siqnalı ilə qaldırılan qoşunlar, komanda idarəetmə məntəqələri, döyüş və ehtiyat hərbi hissələri əməliyyat təyinatı rayonları istiqamətində hərəkət edir.

Qoşunların yerdəyişməsi tələblərə uyğun olaraq gizli və operativ şəkildə həyata keçirilir. Şəxsi heyətin və hərbi texnikanın bütün hərəkəti komendant xidməti tərəfindən tənzimlənir.

Təlimin hazırkı mərhələsinin şərtlərinə uyğun olaraq qoşunlar döyüş əməliyyatlarına hazırlıq üzrə planlı işlər yerinə yetirirlər.

**(Ardı 3-cü səhifədə)**

# Müdafiə naziri: “Münaqişə tezliklə ədalətli həll olunmazsa, düşmən ordumuzun gücünü hiss edəcək”



*İyunun 30-da Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.*

Müdafiə nazirinin müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə, xidmət rəisləri, eləcə də birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlər də cəlb olunub.

Silahlı Qüvvələrin yaradılmasının 100 illik yubileyi münasibətilə hərbi qulluqçuları bir daha təbrik edən Müdafiə naziri hərbi paradda iştirak etmiş şəxsi heyətin, eləcə də döyüş texnikası və aviasiya vasitələrinin heyətlərinin hazırlığını yüksək qiymətləndirib. Nazir müxtəlif ölkələrdən bayram tədbirləri ilə əlaqədar Azərbaycana gəlmiş yüksək rütbəli hərbi nümayəndə heyətlərinin yubiley mərasimlərinin təşkili, xüsusilə də hərbi paradın keçirilməsindən məmnun qaldıqlarını diqqətə çatdırıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğını xüsusi vurğulayan general-polkovnik Zakir Həsənov yüksək səviyyədə keçirilmiş bayram tədbirlərinin ölkəmizin hərbi qüdrətini və ordumuzun döyüş qabiliyyətini bütün dünyaya bir daha nümayiş etdirdiyini qeyd edib.

Cəbhədəki mövcud vəziyyətə toxunan Müdafiə naziri



qoşunların döyüş qabiliyyətinin, şəxsi heyətin döyüşə hazırlıq səviyyəsi, nizam-intizamı və döyüş növbətçiliyi zamanı sayıqlığının artırılmasına xüsusi diqqət yetirilməsinin vacibliyini vurğulayıb.

Ali Baş Komandanın çıxışlarında səsləndirdiyi torpaqlarımızın işğal altında qalması ilə heç vaxt barışmayacağıq fikrini vurğulayan Müdafiə naziri bildirib: "Münaqişənin həllinin uzadılması onun yenidən və daha geniş miqyasda alovlanmasına aparır. Münaqişə tezliklə beynəlxalq hüququn norma və prinsiplərinə əsasən ədalətli həll olunmalıdır. Əks təqdirdə düşmən Azərbaycan xalqının əzmini və vətənpərvərliyini, eləcə də ordumuzun silahının gücünü öz üzərində hiss edəcəkdir".

İyulun 2-dən 6-dək cəbhə bölgəsində keçiriləcək genişmiqyaslı təlimlərə toxunan Müdafiə naziri müvafiq vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub. Nazir qeyd edib ki, təlimlərdə əsas diqqət işğal olunmuş ərazilərin azad edilməsinin müxtəlif ssenariləri üzrə qoşunların tətbiqi və müvafiq döyüş tapşırıqlarının icrası, o cümlədən düşmənin bütün hərbi infrastrukturunun məhv edilməsi üçün nəzərdə tutulan ən müasir silah və hərbi texnikanın praktiki tətbiqinə yönəldilməlidir.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

## “Hərbi hissələrdə və ön xətt bölmələrində elektrik enerjisinin təchizatı ilə bağlı problem yoxdur”

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ötən gecə elektrik enerjisinin verilməsinin müvəqqəti kəsilməsi ilə əlaqədar hərbi hissələrdə və ön xətt bölmələrində hər hansı problemin olub-olmaması barədə AZƏRTAC-ın sorğusunu cavablandırıb.

Nazirlikdən bildiriblər ki, hərbi infrastrukturun fəaliyyətinin tam şəkildə təmin edilməsi məqsədilə Müdafiə Nazirliyinin bütün hərbi hissələri, hərbi tibb müəssisələri, maddi-texniki təminat, rabitə, kəşfiyyat bölmələri, o cümlədən xüsusi təyinatlı hərbi təhsil müəssisələri və digər hərbi obyektləri xüsusi rejimdə fəaliyyət göstərən ehtiyat enerji mənbələri ilə təchiz edilib. Elektrik enerjisinin verilişində hər hansı problem yarandıqda həmin enerji mənbələri avtomatik rejimdə işə düşür. Dünən gecədən elektrik enerjisinin verilməsi müvəqqəti dayandırılan kimi bu enerji mənbələri avtomatik işə düşüb və hazırda ordumuzun bütün hərbi hissələrində, xüsusilə ön xətt bölmələrində elektrik enerjisinin təchizatı ilə bağlı problem yoxdur. Hərbi hissələrdə xidməti-döyüş fəaliyyəti fasiləsiz rejimdə davam etdirilir.

"Müdafiə Nazirliyi ehtiyac yaranacağı halda mühüm mülki infrastruktur obyektlərinin (xəstəxanalar, uşaq bağçaları, doğum evləri və s.) də fəaliyyətinin təmin olunması üçün lazımi səviyyədə enerji ilə təchiz edilməsinə kömək göstərməyə hazırdır", - deyə açıqlamada bildirilib.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***3 iyul 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 84 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Ayqeovit kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Quşçu Ayrım, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Ağbulaq, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Şuraabad, Şıxlar, Şirvanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Yubiley münasibətilə foto-sərgi keçirildi



*Azərbaycan Ordusu və Birləşmiş Krallığın Hərbi Hava Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə foto-sərgi keçirildi.*

Tədbirdə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Dövlət himnləri səsləndirildi.

Azərbaycan Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov çıxış edərək tədbirin təşkilatçılarına, xüsusilə səfir xanım Karol Kroftsa təşəkkürünü bildirdi və Birləşmiş Krallığın Hərbi Hava Qüvvələrinin şəxsi heyətini yubiley münasibətilə təbrik etdi. Komandan onu da bildirdi ki, Azərbaycanda müasir ordu quruculuğunun əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. “Qısa müddət ərzində ordumuz qarşısına qoyulan hər bir vəzifəni yerinə yetirməyə qadir hərbi qüvvəyə çevrilib. Bu gün Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə nəinki regionda, hətta dünya orduları sırasında öz layiqli yerini tutub. Ümummilli lider Heydər Əliyev tərəfindən daim diqqət mərkəzində olan Azərbaycan-Birləşmiş Krallıq əlaqələri bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.”

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı səfiri xanım Karol Krofts Azərbaycan Ordusu və Birləşmiş Krallığın Hərbi Hava Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə toplaşanları təbrik etdi. Azərbaycan və Birləşmiş Krallığın münasibətlərindən danışan səfir təşkil olunan sərginin uzun müddət ölkələrimizin birgə dəyərləri bölüşən tərəfdaş olduğunun sübutudur, - deyə qeyd etdi. Çıxışına davam edən Karol Krofts Azərbaycanla bütün sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlığın ikitərəfli əsasda, eləcə də NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində Azərbaycanın Kosovo, İraq və Əfqanıstanda beynəlxalq sülhyaratma əməliyyatlarına göstərdiyi dəstəyi xüsusilə alqışladığını bildirdi.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının və Azərbaycan Hərbi Hava Qüvvələrinin tarixini, bu gününü əks etdirən fotolar nümayiş olundu.

**Baş leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu"**

*Ön xətdən reportaj*

# Güclü dövlətimiz - güclü ordumuz

*Ön xətdə yerləşən hərbi hissələrimizdən birindəyik. Kapitan Elmar İsmayılov şəxsi heyətin mənəvi-psixoloji, döyüş hazırlığı və döyüş ruhunun yüksək səviyyədə olmasından söz açır:*



- Bir hərbçi kimi deyə bilərəm ki, bu gün ordumuzun qüdrətinə, döyüş bacarığına heç bir şübhə ola bilməz. Aprel döyüşləri bir daha sübut etdi ki, əsgərlərimizin döyüş ruhu olduqca yüksək səviyyədədir. Vətənpərvərlik - Vətənini sevmək və Vətən üçün hər cür fədakarlığı etmək deməkdir. Bu hiss insanda anadangəlmə olsa da, müxtəlif metodlarla, vasitələrlə möhkəmləndirmək mümkündür. Şəxsi heyət arasında vətənpərvərlik hissini artırmaq məqsədi ilə daim kütləvi tərbiyəvi tədbirlər keçiririk. Bu gün hər bir Azərbaycan əsgəri torpaqlarımız uğrunda canlarından keçməyə hazırdır. Qazanılmış uğurlarla kifayətlənməməliyik. Bizi gələcəkdə Böyük Qələbə gözləyir.

Səngərdəyik. Taqım komandiri leytenant İlqar Zeynalovdan öyrənirəm ki, vaxtı ilə burada Biləsuvar rayonunun Əliabad kəndində dünyaya göz açan, xalqımızın fəxri, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov xidmət edib. Əsgər yataqxanasında qəhrəmanın fotostendi gözümüzdən yayınmır. Fotostendin qarşısında düşünürəm: Mübariz İbrahimov canını qurban verərək Azərbaycan əsgərinin Vətən sevgisini, mərdliyini bütün dünyaya sübut etdi, misilsiz qəhrəmanlığı ilə ordumuzda nümunə və örnək timsalına çevrildi, gənc əsgərlərimizin düşmənə nifrət və döyüşkənlik ruhunda tərbiyəsinə vasitə oldu. Milli qəhrəmanımızın vida mərasimində Ali Baş Komandan İlham Əliyevin dediklərini xatırlayıram: "... Mübariz yaxşı bilirdi ki, o, döyüşdən sağ-salamat çıxa bilməyəcək. Ancaq Vətən, torpaq sevgisi, vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı. Mübariz bütün gənclər üçün örnəkdir, nümunədir".

İ.Zeynalov bu torpaqlar uğrunda şəhid olan hər bir qəhrəmanımızın qisasını alacağını bildirdi:

- Etiraf edim ki, Mübariz kimi oğullarımız ordu sıralarında çoxdur. Onlar da bizim Milli qəhrəmanlarımız kimi cəsurluqlarını, mərdliklərini, məharətlərini gələcək döyüşlərdə göstərməyə hər an hazırdırlar. Şəxsi heyətin döyüş, fiziki, mənəvi-psixoloji, atəş hazırlıqlarını hər zaman yüksək səviyyədə saxlamaq üçün kurs müddətində peşəkar müəllimlər tərəfindən mənimsədiyimiz hərb peşəsini əsgərlərimizə öyrədirik. İki il əvvəl düşmən hücumlarının qarşısını alarkən qısa bir vaxt ərzində müəyyən ərazilərimizi işğaldan azad etdik, bu gün də Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə geridə qalan torpaqlarımızı da işğaldan azad edəcəyik".

Xaçmaz rayonundan ordu sıralarına çağırılan əsgər Ramil Kəbirov ön xətt bölmələrindən birində xidmət etdiyindən qürur duyduğunu bildirir:

- Gənc əsgər olduğum müddətdə hər zaman ön xətdə xidmət etmək istəmişəm. Bizlərə həsrətlə baxan torpaqlarımızı müşahidə etmək, düşmənlərimizi hər zaman nəzarətdə saxlamaq, onların hücumlarının qarşısını almaq üçün. Nəhayət, istəyimə nail oldum. Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə işğal altında qalan dədə-baba yurdlarımızı mənfur ermənilərdən azad edənlərin sıralarında olmaq istəyirəm. Həmin günü Azərbaycan xalqı həsrətlə gözləyir. Ümummilli lider Heydər Əliyevin sözlərini xatırlayıram: "Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir". Bu fikirlər aprel döyüşləri zamanı öz təsdiqini tapdı. Azərbaycan Ordusu xalqa arxalanaraq düşməni məğlubiyyətə uğratdı.

- Bu torpaqlar bizlərə dədə-babalarımızdan qalan əmanətdir. Böyüklərimizdən onu da öyrənmişik ki, əmanəti canın bahasına olsa da qorumalısan. Qorumaq üçün Mübarizlərimiz, Çingizlərimiz, Urfanlarımız... kimi mərd oğullarımız bir an tərəddüd etmədən canlarından keçiblər. Onların hamısı Azərbaycan əsgəri üçün bariz nümunədir. Düzdür, ön xətdə xidmət etmək çətindir. Lakin bizi gözləyən dədə-baba yurdlarımız çətinlikləri unutmamıza yardımçı olur. Bizim yalnız bir məqsədimiz var - erməni dığalarından qisasımızı almaq, onları Vətənimizdən qovub çıxarmaq. O günə isə çox az qalıb, - Füzuli rayonundan olan əsgər Nurislam Fətullayev belə deyir.

Salyan rayonundan orduya çağırılan əsgər Mərahim Soltanov hərbi xidmət dövründə qazanılan dostluqdan söz açır:

- Səngər dostu ömür dostudur, - deyirlər. Vətənin keşiyində dayananda, bu sözlərin həqiqət olduğuna bir daha əmin oldum. Xidməti müddətimdə əsgər Allahşükür Ələkbərov kimi dürüst, hər zaman harayıma çatan dost qazandım. Onunla çiyin-çiynə Vətənimizi yağılardan qoruduğumdan qürur duyuram. Boş vaxtlarımızda ermənilərin tapdağı altında qalan torpaqlarımızdan, yurd-yuvalarından didərgin düşən həmvətənlərimizdən danışırıq. Onların Vətən həsrətinə son qoyacağımız günü səbirsizliklə gözləyirik.

- Yuxarı komandanlığın biz əsgərlərə göstərdiyi diqqət və qayğıları göz önündədir. Düşmənlə təmas xəttində hər cür məişət şəraiti ilə təmin olunmuşuq. Asudə vaxtlarımızda radio və televizor vasitəsilə ölkədə və dünyada baş verən hadisələri izləyirik. Kitab, qəzet, jurnal oxuyur, müxtəlif növ maarifləndirici viktorinalar keçiririk. Komandirlərimiz hərbi vərdişlərimizin artırılmasına böyük önəm verirlər. Nəzəri məşğələlərin praktiki mənimsənilməsi istiqamətində təlimlər keçirilir. Bunun nəticəsidir ki, hər birimiz istənilən vaxt düşmənin təxribatlarına layiqli cavab verməyə hazırıq, - bu sözləri isə əsgər Nicat Hüseynov deyir.

Əsgərlər Kənan Baxşəliyev, Allahşükür Ələkbərov və digərləri tez bir zamanda Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə torpaqlarımızı işğaldan azad edəcəklərini bildirdilər.

Mərd, cəsur, məğrur oğullarımızdan ayrılmaq istəməsək də, vaxtımızın sıxlığından onlara növbəti görüşlərimizin işğaldan azad olunacaq torpaqlarımızda baş tutacağı arzusu ilə sağollaşırıq. Əmin oluruq ki, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində güclü maddi-texniki baza və müasir silah-sursatla formalaşan ordumuzda şəxsi heyətimizin döyüş ruhu olduqca yüksək səviyyədədir. Bu gün Azərbaycan Ordusu ölkəni istənilən təcavüzdən qorumağa və hər an torpaqlarımızı işğaldan azad etməyə qadirdi. Hər bir vətəndaşımız da yaxşı bilir ki, Azərbaycanın güclü dövləti, güclü ordusu var.

**Leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Azərbaycan Ordusunda genişmiqyaslı təlimlər başlayıb



**(Əvvəli 1-ci səhifədə)**

Müxtəlif qoşun növlərinin tətbiqi ilə keçirilən təlimlər davam edir.

Təlimin niyyətinə uyğun olaraq əməliyyatlarda atəş dəstəyi həyata keçirəcək tank bölmələri təyin edilmiş məntəqələrə çıxarıldıqdan sonra növbəti mərhələyə hazırlıqla bağlı tapşırıqlar icra edirlər.

* * *



Genişmiqyaslı təlimlərin planına əsasən, təlimlərdə iştirak edən döyüş aviasiya vasitələrinin yerdəyişməsi həyata keçirilib. "Həyəcan" siqnalı ilə qaldırılan döyüş aviasiya vasitələri ehtiyat aerodromlarına çıxarılıb.

Hava hücumundan müdafiə vasitələrinin ərazidə yerləşdirilməsi sona çatdırılıb.

1918 Azərbaycan Ordusu - 100 2018

# Tarixi gün - tarixi parad

*İyunun 26-da Bakıda Azərbaycan Ordusunun yaradılmasının 100 illiyi şərəfinə hərbi parad keçirildi. Bu parad ordu-ictimaiyyət münasibətlərində şəffaflığı təmin edən möhtəşəm bir parad oldu. Hərbi paradın təntənəsi yaddaşlarda qaldı və qalacaq. Paradda arsenalımızda olan ən son hərbi texnikalar nümayiş etdirildi. Azərbaycan Hərbi Hava Qüvvələrinin döyüş helikopter və təyyarələrinin paytaxtımızın səmasında uçuşlar həyata keçirməsi və mürəkkəb aviaşoular yerinə yetirməsi pilotlarımızın yüksək döyüş hazırlığının sübutudur. Paradı izləyən xarici ölkələri təmsil edən jurnalistlərin təəssüratları hər bir azərbaycanlıya qürur yaşadır. Ordumuzun gücünü təsdiqləyən paradda iştirak edən hərbi qulluqçuların da sevinci hədsizdir. Onların parad haqqında fikirlərini dərc edirik.*

**Mayor İlham Mehdiyev:**
- Azərbaycan Ordusunun 100 illiyini böyük coşqu ilə, qürurla qeyd etdik. Taleyimdən çox razıyam ki, ordumuzun 100 illiyində Bakıda keçirilən hərbi paradda mən də iştirak etdim. Sevincim hədsiz idi. Bizim sıramız çatana kimi bir qədər həyəcanlıydım.



İlk addımlar atılanda həyəcanım sovuşdu. Mənə elə gəldi ki, Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etmişik, Böyük Qələbənin paradındayıq. O günün sevinci çox möhtəşəm olacaq.

Son illərdə həyata keçirilən böyük islahatlar ordu quruculuğunda möhtəşəm uğurlarla nəticələndi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, "Azərbaycan Ordusu nəinki bölgədə, dünyada ən güclü ordular sırasındadır". Mən fəxr edirəm ki, belə bir ordunun - Azərbaycan Ordusunun zabitiyəm.

Hər birimiz Ali Baş Komandanın döyüş əmrinə hazırıq, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Vətən bizdən qələbə gözləyir. Qazanacağımız Böyük Qələbə hərbçilərin Vətənə ən böyük hədiyyəsi olacaq. Bakıda keçirilən, mənim də iştirak etdiyim hərbi parad təsdiqlədi ki, Azərbaycan Ordusu buna qadirdir. Biz Ali Baş Komandanın, Müdafiə Nazirliyinin rəhbərliyinin əmr və göstərişlərini böyük məsuliyyətlə yerinə yetirəcəyik. Böyük Qələbə günü uzaqda deyil. Böyük Qələbədən sonra keçiriləcək hərbi parad da...

**Baş leytenant Rasim Hacıyev:**
- Əlamətdar günlər heç kimin yadından çıxmır. 2018-ci ilin 26 iyunu kimi. Həmin gün Bakıda Azərbaycan Ordusunun 100 illiyinə həsr olunmuş möhtəşəm parad keçirildi. Fəxr edirəm ki, həmin paradı izləyənlər sırasında deyil, paradın iştirakçılarından oldum. Paradda iştirak edəcəyimi eşidəndə çox sevindim və bunu hərbçi olmağıma xeyir-dua vermiş valideynlərimlə bölüşmək istədim...

Komandirim mənim də paradda iştirak edəcəyimi deyəndə bunu hərbi xidmətimə verilən dəyər, mükafat bildim. Zabit yoldaşlarım da, tabeçiliyimdə olan əsgərlər də məni təbrik edəndə, nə gizlədim, bir qədər kövrəldim də...

Bu möhtəşəm parad Azərbaycan Ordusunun gücünü, potensialını, nizamiliyini təsdiqlədi. Paradı izləyənlərin sevincini, qürurunu gördük, bu qürurun hərbçilərdən gözlədiyi qələbənin də iştirakçısı olacağıq. Xalqın güvəncini, inamını Ali Baş Komandanın əmri ilə qələbəylə tamamlayacağıq...

**Gizir Ramazan Dibirov:**
- Paradda döyüş maşınının komandiri idim. Əmr verilən-də təlimata müvafiq sürətlə, məsafə gözləməklə irəliləyirdik. Sövq-təbii paradı izləyənlərin sevincini, qürurunu hiss edirdim, Azərbaycan Ordusunun ünvanına səsləndirdikləri şüarları eşidirdim. O qədər sevinirdim ki! Təvazökarlıqdan uzaq olsa da deyim ki, belə bir möhtəşəm paradda iştirak etməyimlə qürurlanırdım. Bu qürurun sevinci uzunömürlü olacaq. Ali Baş Komandanın döyüş əmrini gözləyirik. Döyüşəcəyik, torpaqlarımızı işğaldan tamamilə azad edəcəyik, 2016-cı ilin aprel zəfərini, 2018-ci ilin Günnüt zəfərini tamamlayacağıq. Böyük Qələbədən sonra keçiriləcək hərbi paradda da iştirak etməyi arzulayıram...

**Gizir Akif Əliyev:**
- Həqiqi hərbi xidmətimdən sonra xidmətimi gizir kimi davam etdirməyi qərara aldım. O vaxtlar qəbul etdiyim bu qərara görə nə qədər məmnunam. Məmnunam ki, Azərbaycan Ordusunun hərbi qulluqçusuyam, Azərbaycan Ordusunun 100 illiyinə həsr olunmuş hərbi paradda iştirak etmişəm.



Paradda döyüş maşınını idarə etdikcə Horadiz əməliyyatında, 2016-cı ilin aprel döyüşlərində döyüş maşınlarını idarə edənləri - qəhrəmanlarımızı xatırlayırdım. Ali Baş Komandanımız döyüş əmri verəndə mən də elə döyüşəcəm. Qələbə üçün döyüşəcəm, torpaqlarımızın işğaldan tamamilə azad edilməsi naminə döyüşəcəm.

Bu paradı izləyən xarici vətəndaşlar da gördülər ki, qurucusu ulu öndər Heydər Əliyev olan Azərbaycan Ordusu güclüdür. Bu gücə malik olan ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığı da yüksəkdir. Biz xarici qonaqların təəssüratlarından da qürurlanırıq.



* * *

**Leytenant Əkbər Əkbərov:**
- İnsan həyatında baş verən hadisələr onun həyat yolunu seçməsində zəruri rol oynayır. Hamı kimi mənim də hərb sənətini seçməyim səbəbsiz deyil. Uşaqlığımda hərbi forma geyinən gəncləri görəndə həsəd aparır, xəyalımın nə vaxtsa gerçək olacağına şübhə etmirdim. Atamın tez-tez işlətdiyi "Həyatdakı ən böyük uğur, qətiyyətli qərardan doğur" fikri mənim həyatıma istiqamət verən kompas oldu. Nəhayət, qətiyyətli qərarımdan sonra zabit olaraq xidmətdəyəm. Leytenant hərbi rütbəsini daşıyan gənc olaraq 100 yaşlı qüdrətli ordunun hərbi qulluqçusu kimi qürur duyuram. Keçirilən hərbi parad təkcə Azərbaycanın deyil, dünyanın diqqət mərkəzində idi. Mən tank komandiri kimi paradın iştirakçısı idim. Keçirdiyim qürurun, yaşadığım sevincin həddi-hüdudu yox idi. Ötən əsrin əvvəllərində - Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 23 aylıq qısa zaman kəsiyində xalqımız öz ordusunu, hərbi qüvvəsini yaratmağa imkan tapdığı dövrdə peşəkar hərbçilər, güclü silah-texnika yox idi. Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski kimi dövrün istedadlı generallarının böyük zəhməti nəticəsində Azərbaycan Ordusu peşəkar hərbçilər yetişdirməyə başladı. Müxtəlif siyasi hadisələr Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna gətirib çıxardı.

**(Ardı 5-ci səhifədə)**

1918 Azərbaycan Ordusu - 100 2018

# Tarixi gün - tarixi parad

(Əvvəli 4-cü səhifədə)

Müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyev Azərbaycanın və onun güclü ordusunun təməlini qoyaraq möhkəmləndirdi. Ulu Öndərin dediyi bir fikir daim xatirimdədir: "Müharibə etmək, sadəcə, müxtəlif istiqamətlərdən atəş açmaq deyil. Bu, mükəmməl təcrübə, təkmil hazırlıq və yüksək döyüş ruhu tələb edir". Paradda nümayiş olunan ən müasir silah-texnika, nizam-intizamlı şəxsi heyət Ulu Öndərin bu fikirlərinin təsdiqi idi. Bu gün Cənubi Qafqazın ən güclü ordusu olan Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin əmri və rəhbərliyi ilə istənilən döyüş tapşırığını yerinə yetirməyə, işğalda olan torpaqlarımızı geri qaytarmağa hazırdır.



**Kapitan Rəşad Qasımlı:**

- 2006-2009-cu illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə və 2009-2013-cü illərdə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Hərbi Hava Qüvvələri fakültəsində) təhsil almışam. Məndən əvvəl böyük qardaşım Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirib, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinə daxil oldu. Mən də həvəsləndim. Bu gün artıq milli şahinlərimizin sırasında Azərbaycanın hava məkanını qoruyuram. Bununla da qürur duyuram. Ancaq hərbi paradda keçirdiyim hissi, duyduğum qüruru ifadə etməyə çətinlik çəkirəm. İlk uçuşum zamanı hansı hissləri keçirirdimsə, bu paradda da həmin hissləri keçirirdim. Bildiyiniz kimi, "Su-25" təyyarələri ilə müxtəlif düzülüşlərdə hərəkət edərək yüksək pilotaj fiqurları nümayiş etdirdik.



Təcrübə istənilən peşənin sahibləri üçün əhəmiyyətlidir. Ancaq təyyarəçilər üçün təcrübə ikiqat əhəmiyyətlidir. Paradımız kimi şahinlərimizin də pilotaj hərəkətləri möhtəşəm alındı. İndiyə qədər xalqımız Azərbaycan səmasında ancaq türk şahinlərinin aviaşou xarakterli çıxışlarını izləyib. 100 illik yubiley münasibətilə keçirilən hərbi paradda da Türkiyə Hərbi Hava Qüvvələrinin "Solo Türk" və "Türk Ulduzları" aviaqrupuna daxil olan 2 ədəd F-16 və 8 ədəd F-5 tipli təyyarələri Bakı buxtası üzərində nümunəvi uçuşlar həyata keçirdi və bu, Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının təzahürü idi. Xalqımız milli şahinlərimizin gücünə və qüdrətinə bir daha əmin oldu. Mənim üçün ən vacib amil xalqımın və Ali Baş Komandanımın qarşısında hesabat xarakterli çıxışım idi.

**Baş leytenant Rəvan Əşrəfov:**

- 100 illik yubiley münasibətilə təşkil olunan möhtəşəm hərbi parad bir daha sübut etdi ki, Azərbaycan Hərbi Hava Qüvvələri hərbi əməliyyatlar zamanı istənilən nöqtədən düşmənə sarsıdıcı zərbələr endirmək qabiliyyətinə malikdir. Bu gün bir zabit kimi deyə bilərəm ki, qırıcı-bombardmançı aviasiyamız bütün hündürlüklərdə hava hədəflərini məhv etmək, yerləşdiyi məkandan asılı olmayaraq yerüstü obyektlərə və hədəflərə zərbələr endirmək iqtidarındadır. Hücum və döyüş helikopterlərimiz tam qüvvələri ilə Quru Qoşunlarına aviasiya dəstəyi göstərmək və bütün cəbhə boyu düşmənə fasiləsiz zərbə vurmaq gücündədir. Keçirilən hərbi parad da həmin mesajları qarşı tərəfə çatdırmaq məqsədi daşıyırdı. Ömrümüz anlardan ibarətdir. Bir an zamanın genişliyində olduqca xırda görünür. Elə anlar var ki, onun həyatımızda hökmü böyük olur. Onun dəyərini ömrümüzün saatına, gününə, ayına, ilinə dəyişmərik. Hərbi parad zamanı yaşadığım anlar həmin anların önündə dayanır. Qeyd edim ki, mənim təyyarə ilə tanışlığım 1 yaşımdan başlayıb. Atam təyyarə mühəndisi olduğundan həyatımın çox hissəsi onun iş yerində keçib. Başımın üstündən uçan təyyarələrə baxdıqca bu peşəyə həvəsim artırdı. Elə təsəvvür edirdim ki, həmin təyyarələri mən idarə edirəm. Həmin hisslər məni qanadlandırırdı, ağuşuna alıb uzaqlara aparırdı. Bir sözlə, ürəyim təyyarəçilik peşəsi ilə döyünürdü. Mənə elə gəlir ki, bu məqamları, həmin möhtəşəm günü çoxdan gözləyirdim. Ancaq müstəqil Azərbaycan Respublikasının bütün hava məkanında sərbəst uçacağım günü bütün ömrüm boyu gözləmişəm və inanıram ki, tezliklə hicrana Azərbaycan Ordusu son qoyacaq. İnanıram ki, o günü görəcəyik.

**Baş leytenant Rasim Abdullayev:**

- "Çox sevinirəm ki, indi milli şahinlərimiz var. Sevinirəm ki, bizim şahinlərimiz Azərbaycan səmasını, Azərbaycan ərazisini, Azərbaycanın müstəqilliyini qorumağa qadirdirlər." Ümummilli Liderimizin bu sözlərini əsas tutaraq Hava Hücumundan Müdafiə bölmələrimiz və şəxsi heyətimiz qarşısına qoyulan döyüş tapşırıqlarını yerinə yetirməklə Vətənimizin hava sərhədlərini etibarlı müdafiə edirlər. Bu gün silahlanmamızda olan və hərbi paradda nümayiş olunan texnikalar yüksək texniki imkanlara malikdir və düşmənin ən müasir hava hücumu vasitələrini məhv etməyə qadirdir. Xoşbəxtəm ki, 100 illik yubileyini qeyd edən, müasir hərbi texnika ilə təchiz edilən, Lələtəpə qələbəsinə, Günnüt zəfərinə nail olan Azərbaycan Ordusunun zabitiyəm və möhtəşəm hərbi paradın iştirakçısıyam.

**Baş leytenant Yasin Məmmədov:**

- Mən özümü ona görə xoşbəxt hesab edirəm ki, təyyarəçi olmağımla həyatda axtardığımı tapmışam, əsas arzumu həyata keçirmişəm. Elə hesab edirəm ki, göyün dərinliklərində uçduqca ailəmin, valideynlərimin, millətimin, xalqımın başını uca tuturam. Böyük Azərbaycan şairi Səməd Vurğun demişkən:

Eşqidir mehrabı uca göylərin!
Bizim bir eşqimiz, bir sevgimiz var - o sevginin adı Azərbaycandır. Əminəm ki, bu uçuşla Odlar Yurdu Azərbaycan yenidən dünyanın diqqətini cəlb edəcək və əbədi olaraq müstəqil olacaq!

**Kapitan Ramil Qasımlı:**

- 2011-ci ildən ordu sıralarında xidmət edirəm. Gənc yaşlarımdan bu peşəyə marağım məni Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə gətirdi. Hərbi təhsil ocağında bu ixtisasın incəliklərinə dərindən yiyələndim. Təbii ki, helikopter idarə etmək çətin və bir o qədər də məsuliyyətlidir. Qardaşım Rəşad Qasımlı da pilotdur. Hər ikimiz 100 illik yubiley münasibətilə keçirilən hərbi paradda iştirak etdik. Dünya ölkələrinin də diqqətlərinin yönəldiyi hərbi paradda iştirak etmək qürurverici bir hissdir.



**Kapitan Hüseyn Abbasov:**

- Yubileyini qeyd edən ordunun hərbi paradında iştirak etmək hər bir hərbi qulluqçunun arzusudur. Tədbirdə Ali Baş Komandan İlham Əliyevin iştirakı bizim üçün əlavə stimul və güc oldu. Bu paradda iştirak etməyim əvəzolunmaz bir duyğudur. Paradda bu manevri yüksək peşəkarlıqla yerinə yetirməyimiz and məsələsi idi. İndi də həmin kadrlara baxarkən yoldaşlarımla birlikdə fəxr hissi keçiririk.

**Kapitan Roman Musayev:**

- Təntənəli hərbi paradımız başa çatdı. Hərbi paradda sərgilənən texnikalarımız regionun lider ordusu və dünyanın aparıcı orduları sırasında olmağımızın ən məntiqi təzahürü idi. Bu paradda iştirak etmək hər birimizin müqəddəs arzusu idi. Ordumuzun 100 illiyində həm ordu sıralarının zabiti olduğum üçün, həm də hərbi paradda iştirak etdiyim üçün ikiqat sevincliyəm. 2018-ci ilin 26 iyun günü həyatımda ən unudulmaz günlərdən biri olaraq hafizəmə həkk olundu.

**Baş leytenant Nihat Qurbanzadə:**

- İki ildir ki, Azərbaycan Ordusunun zabitiyəm. Xidmətimin ikinci ilində 100 yaşlı ordumuzun hərbi paradında iştirak etməyim mənə unudulmaz anlar bəxş etdi. Təlimlərin lent yazısına baxarkən, rəhbərliyin məmnunluğunu duymaq o qədər də çətin deyildi. Təlimlərdə qazandığımız təcrübənin nəticəsi idi ki, hərbi paradda qarşımıza qoyulan tapşırıqları uğurla icra etdik. Komandanlığın göstərdiyi diqqət və qayğı bizə əlavə stimul verirdi.

**Baş leytenant Bəhram Səfərli:**

- Ordumuzun 100-cü ildönümü ilə bağlı keçirilən möhtəşəm hərbi paradda pilotlarımızın yüksək ustalıqla yerinə yetirdiyi mürəkkəb kombinasiyalı uçuşlar iştirak etdiyimiz təlimlərin uğurla keçirildiyinin və zabitlərimiz tərəfindən dəqiqliklə mənimsənildiyinin bariz nümunəsi idi. Parada hazırlıq müddətində komandirlərimizin bizim qarşımıza qoyduğu tapşırıqlar uğurla yerinə yetirildi. Hərbi parad başa çatdıqdan sonra komandanlıq tərəfindən bizə təşəkkür elan edildi. Bu bayram ərəfəsində hərbi qulluqçu üçün bundan gözəl hədiyyə ola bilməzdi.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**
**1. Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin əsas prinsipidir.**
**2. Möhkəm hərbi intizam döyüşdə müvəffəqiyyətin əsas şərtidir.**

**Mövzu:** Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin, döyüşdə müvəffəqiyyətin əsas prinsipi və şərtidir.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Silahlı Qüvvələrin İntizam Nizamnaməsindən istifadə etməli, bölmədə hərbi intizamın vəziyyətini və xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

### *Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin əsas prinsipidir*

Azərbaycan Ordusu Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir. Bu müqəddəs vəzifələri yerinə yetirmək üçün ordumuz daim döyüşə hazır vəziyyətdə olmalıdır.

Müasir dövrdə hərbi intizamın rolu əvəzedilməzdir. Ordu Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsidir. Ümumdövlət intizamı kimi hərbi intizam da eyni hüquqi və mənəvi prinsiplərə əsaslanır. Hərbi qulluqçular bütün Azərbaycan vətəndaşları kimi Azərbaycan Respublikasının qanunlarının tələblərinə şüurlu surətdə ciddi riayət etməlidirlər. Şüurlu hərbi intizam - yüksək döyüş hazırlığı və döyüş qabiliyyəti ordunun əsas şərtidir.

Bununla yanaşı, orduda Hərbi And içən hərbi qulluqçular Vətənə sadiq olmaqla yanaşı, məhrumiyyətlərə və çətinliklərə dözməyə, intizamlı olmağa da and içirlər və andı pozarlarsa, Azərbaycan Respublikasının qanunlarına əsasən tam ciddiyyəti ilə məsuliyyət daşımağa hazır olduqlarını dərk edirlər. Azərbaycan Ordusunda hərbi intizam İntizam Nizamnaməsi ilə tənzimlənir.

Azərbaycan Ordusunda hərbi intizam hərbi qulluqçuların şüurluluğuna və vətənpərvərlik borclarını dərindən dərk etmələrinə, xalqımızın beynəlmiləlçilik ənənələrinə sadiq olmalarına və Vətənə sonsuz məhəbbət bəsləmələrinə və hərbi intizamın tələblərinə şüurlu surətdə tabe olmalarına əsaslanır.

İntizam Nizamnaməsinin 2-ci maddəsi hər bir hərbi qulluqçunun hərbi borcunu və öz Vətəni Azərbaycan Respublikasının müdafiəsi üçün şəxsi məsuliyyət daşımasını şüurlu surətdə dərk etməsini tələb edir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin İntizam Nizamnaməsində hərbi intizam anlayışı aşağıdakı kimi müəyyən edilir: "Hərbi intizam - bütün hərbi qulluqçuların Azərbaycan Respublikası qanunlarında və hərbi nizamnamələrində müəyyən olunmuş qaydalara ciddi riayət etməsi deməkdir."

**Hərbi intizam hər bir hərbi qulluqçudan aşağıda göstərilənləri tələb edir:**

- Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi riayət etməyi, Hərbi Andın və hərbi nizamnamələrin tələblərini dəqiq yerinə yetirməyi, komandirlərin (rəislərin) əmr və sərəncamlarına sözsüz tabe olmağı;
- hərbi xidmətin bütün çətinlik və məhrumiyyətlərinə mətinliklə tab gətirməyi, hərbi borcunu yerinə yetirərkən öz qanını və həyatını belə əsirgəməməyi;
- hərbi və dövlət sirlərini möhkəm saxlamağı;
- namuslu və dürüst olmağı, hərb işini vicdanla öyrənməyi, ona tapşırılan silahı, döyüş texnikasını və digər texnikanı, hərbi əmlakı və xalq əmlakını hər vasitə ilə qorumağı;
- komandirlərə (rəislərə) və böyüklərə hörmət etməyi, əsgəri nəzakət və salamvermə qaydalarına əməl etməyi;
- hərbi hissədən kənarda özünü ləyaqətli və namuslu aparmağı, ictimai asayişin özü və başqaları tərəfindən pozulmasına yol verməməyi;
- vətəndaşların şərəf və ləyaqətinin qorunmasına hərtərəfli səy göstərməyi.

Hər bir hərbi qulluqçu bilməlidir ki, yüksək hərbi intizama nail olmaq olar:

- hərbi qulluqçularda yüksək mənəvi və döyüş keyfiyyətləri formalaşdırmaqla və komandirlərə (rəislərə) şüurlu surətdə tabe olmaqla;
- hissədə (bölmədə) nizamnamə qaydalarına ciddi riayət etməklə.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin hərbi qulluqçusu öz Vətəninin - Azərbaycan Respublikasının müdafiəçisidir. O öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır və borcludur:

- Azərbaycanın mənafeyini qorusun;
- onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərsin;
- Azərbaycan Respublikası Konstitusiyasına, qanunlarına və Hərbi Anda müqəddəs və sarsılmaz surətdə riayət etsin;
- intizamlı, vicdanlı, dürüst və cəsarətli olsun; komandirlərə (rəislərə) sözsüz tabe olsun və döyüşdə onları müdafiə etsin.

### *Möhkəm hərbi intizam döyüşdə müvəffəqiyyətin əsas şərtidir*

Döyüş - müharibədə qələbə qazanmağın yeganə vasitəsidir. Döyüşdə düşmənin darmadağın edilməsi və qələbə bütün silah növlərinin güclü zərbələri, zərbələrin nəticələrindən vaxtında istifadə etmə, hissə və bölmələrin fəal və qətiyyətli hərəkətləri ilə əldə edilir.

Döyüşdə müvəffəqiyyətin qazanılmasında şəxsi heyətin şüurlu hərbi intizamı, komandirlərin əmrlərinin dəqiq və sözsüz yerinə yetirilməsi, intizamsızlığın, zəif icraçılığın, Hərbi Andın və müharibə dövrünün qanunlarının tələblərindən geri çəkilməyin qarşısının qəti alınması, yerli əhaliyə qarşı nalayiq hərəkətlərə və qarətçilik hallarına yol verilməməsi böyük əhəmiyyətə malikdir.

**Müasir şəraitdə şəxsi heyətin intizamı və mütəşəkkilliyi aşağıdakılarla bağlıdır:**

- hərbi işin inkişaf etməsi, hərbi hissələrin yeni tipli silahlarla və döyüş texnikası ilə təchiz olunması, döyüş aparma üsullarının kökündən dəyişməsi ilə;
- müasir silahların bir çox növlərinin kollektiv surətdə istifadə olunması, həmin silahların müvəffəqiyyətli tətbiqi ekipaj və heyət üzvlərinin, müxtəlif ixtisaslı hərbi qulluqçuların dəqiq, birgə və bacarıqlı hərəkətlərindən asılılığı;
- hərbi hissələrin yeni müasir silah növləri ilə təchiz edilməsi, bu silahlardan istifadə etmə üsul və qaydalarının öyrənilməsində mövcud olan çətinliklərlə bağlı gərginliyin artması, müasir müharibədə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasının zəruriliyi ilə.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Ermənistanın silahlı qüvvələri tərəfindən təcavüzə məruz qaldı. 1991-1993-cü illərdə Azərbaycan Respublikasının ərazisinin bir hissəsi erməni silahlı birləşmələri tərəfindən işğal olundu.

Həmin illərdə ictimai-siyasi vəziyyət qeyri-sabit idi. Ölkədaxili çəkişmələr, respublika rəhbərliyinin dövləti idarəetmə sahəsində səriştəsizliyi bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da öz mənfi təsirini göstərirdi. Vahid komandanlığın olmaması pərakəndə hissə və birləşmələrin həyat və fəaliyyətini tənzimləməyə və onlara nəzarət etməyə imkan vermirdi. Bu isə hərbi hissələrdə nizamnamə qaydalarının kobud surətdə pozulmasına, şəxsi heyətin hüquqlarının tapdalanmasına, fərariliyin kəskin surətdə artmasına, döyüş meydanının özbaşına tərk edilməsinə, komandirlərin əmrlərinə və göstərişlərinə tabe olmamağa gətirib çıxarırdı. Belə hərbi hissələrin bütün döyüş əməliyyatları uğursuzluqla nəticələnirdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1993-cü ilin iyun ayında xalqın təkidli xahişilə hakimiyyətə qayıtdıqdan sonra ordu quruculuğunu öz xüsusi diqqətinə götürdü və qısa bir müddətdə ordumuzun yüksək döyüş qabiliyyətli olması üçün təsirli tədbirlər gördü. 1993-cü ilin axırlarında, 1994-cü ilin yanvar-may aylarında Azərbaycan Ordusunun apardığı döyüş əməliyyatlarının uğurlu olmasında vahid komandanlığın, möhkəm şüurlu hərbi intizamın böyük rolu vardır.

Ulu Öndər 1993-2003-cü illərdə ordu quruculuğu ilə bağlı bütün çıxışlarında, Azərbaycan Ordusunun hissə və birləşmələrində şəxsi heyətlə bütün görüşlərində möhkəm hərbi intizamın əhəmiyyətini xüsusi vurğulamışdır. Belə görüşlərdən birində onun dediyi "Orduda, hər bir hərbi hissədə yuxarıdan aşağıyadək qanun-qayda, nizam-intizam, yüksək tələbkarlıq mövcud olmalıdır" sözləri bu gün də bütün hərbi qulluqçuların Vətən, xalq və dövlət qarşısında məsuliyyətlərini çox dəqiq ifadə edir və onları intizamlı olmağa çağırır.

Azərbaycanın ərazi bütövlüyünün hələ bərpa edilmədiyi, torpaqlarımızın düşmən işğalında olduğu bir vaxtda Azərbaycan Ordusunun gündəlik həyatında hərbi intizamın əhəmiyyəti gündən-günə artır. 2018-ci ilin birinci yarım tədris dövrünün yekunları bir daha göstərir ki, möhkəm hərbi intizam və qayda-qanun hərbi hissə və bölmələrdə yüksək döyüş hazırlığının əldə olunmasının əsas şərtidir. 2018-ci ilin ikinci yarımilliyində isə qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlmək üçün döyüş hazırlığının yüksəldilməsi, öz vəzifə borclarının şüurlu dərk edilməsi və onların vicdanla yerinə yetirilməsi hər bir hərbi qulluqçudan tələb olunur. Yalnız möhkəm hərbi intizama malik olmaqla komandirlərin əmr və göstərişlərini dəqiq və sözsüz yerinə yetirməklə dərslərdə, təlimlərdə və gələcək döyüşlərdə yüksək nəticələr əldə etmək olar.

Aprel döyüşlərindəki qələbələr Azərbaycan Ordusunun düşmən üzərində böyük zəfərinin başlanğıcı oldu və əminik ki, ordumuz bizi belə qələbələrlə hələ çox sevindirəcək, ərazi bütövlüyümüz gec-tez bərpa olunacaq!

Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bu gün də ordu quruculuğunu daim öz diqqət mərkəzində saxlayır. O, öz çıxışlarından birində demişdir: "Azərbaycan Ordusu güclü ordudur. Biz çalışacağıq və əminəm nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin".

Ordumuzun döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amil Azərbaycan Ordusunun yeni müasir texnika və silahlarla təchiz edilməsi, hərbi qulluqçuların həyat və şəraitinin yaxşılaşdırılmasıdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev mübariz əzmi ilə dövlətimizin müdafiə potensialının artırılması və ordumuzun daha da güclənməsi naminə işlər görərək, öz qayğısını əyani şəkildə nümayiş etdirir.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal olunmuş Ağdərə yaşayış məntəqəsində yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində xidmət edən iki hərbçi avtomobil qəzasına düşüb.

Ford markalı avtomobillə törədilən avtoqəza yerinə fövqəladə hallar naziriliyi və polis şöbəsinin əməkdaşları, həmçinin təcili yardım maşını da çağırılıb.

Həkim Q.Oqanyanın verdiyi məlumata əsasən, avtomobilin altında qalaraq ölən şəxs sürücü, 1992-ci il təvəllüdlü, müqavilə ilə xidmət keçən hərbi qulluqçu Suren Ayvazyandır. Həkimin dediyinə görə, ölən S.Ayvazyan və ağır yaralanan ikinci şəxs də Haterk yaşayış məntəqəsində yerləşdirilən taborda xidmət edən hərbi qulluqçular olduğundan hadisə ilə bağlı hərbi hissəyə və hərbi polisə məlumat verilib.

Avtomobilin altında qalaraq həlak olan hərbçinin cəsədi morqa göndərilib, ağır yaralanan 1986-cı il təvəllüdlü ikinci hərbi qulluqçu isə ilkin tibbi yardımdan sonra xəstəxanaya yerləşdirilib.

Hadisə ictimaiyyətdən gizlədilsə də, faktla bağlı cinayət işi açılıb, istintaq aparılır. Məlumatda, həmçinin hər iki hərbçinin Nor Ayqestan yaşayış məntəqəsindən olduğu bildirilir.

* * *

Ermənistan ordusunun bölmələrində nizamnamədən kənar baş verən insidentlərin sayı artmaqda davam edir. Bu günlərdə daha belə bir hadisə ilə bağlı qalmaqal yaşanıb.

İşğal olunmuş Cəbrayıl rayonu ərazisində yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində xidmət edən Q.Tomasyan adlı hərbi qulluqçu döyüş postunda intizamı pozduğuna və nizamnamədən kənar hərəkətlərə yol verdiyinə görə xidmət yeri dəyişdirilib.

Q.Tomasyanın belə asan cəza ilə canını qurtarması və barəsində cinayət işinin açılmamasına səbəb isə yüksək vəzifəli məmur qohumunun işə qarışması olub.

Faktla bağlı xidməti araşdırma aparıldıqdan sonra komandanlıq onun xidmət yerini dəyişmək barədə qərar verib.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində növbəti ölüm hadisəsi baş verib.

Ön xətt bölmələrindən birində erməni əsgərin meyiti aşkar edilib.

Hadisənin gizlədilməsinə baxmayaraq əsgərin meyitinin aparıldığı xəstəxanadan adının çəkilməsini istəməyən əməkdaş bildirib ki, axşam saatlarında təcili yardım maşını ilə gətirilən cəsəd tibbi ekspertizadan keçirilib və odlu silahla atəşdən öldüyü məlum olub.

Naməlum şəkildə ölən və cəsədi səngərdə aşkar edilən hərbi qulluqçunun 5-ci dağ atıcı alayın əsgəri Vrej Malyamiki olduğu məlumdur.

Hadisə ilə bağlı xidməti araşdırma aparılır, hələlik cinayət işi açılmayıb.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Naxçıvanda döyüş atışlı taktiki xüsusi təlimlər başlayıb



*Muxtar respublikada yerləşən Əlahiddə Ümumqoşun Ordunun Hava Hücumundan Müdafiə hissə və bölmələrində döyüş atışlı taktiki xüsusi təlimlər başlayıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərə həyəcan siqnalının verilməsi, şərti hava düşməninin ilk zərbələrinin dəf edilməsi, idarəetmə və komanda məntəqələrində döyüş işinin aparılması ilə başlanılıb.



Təlimin döyüş atışlı mərhələsində düşmənin hava və yerüstü hədəfləri hava hücumundan müdafiə silahları ilə məhv edilib. Təlimlərə hava düşmənini təqlid edən Əlahiddə Ümumqoşun Ordunun aviasiyası da cəlb edilib.

# Qəhrəmanın xatirəsinə həsr olunmuş turnirin qalibləri mükafatlandırıldı

*Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli qəhrəmanlarının xatirəsinə həsr olunmuş turnir və yarışların keçirilməsi ənənə şəklini alıb. Təhsil ocağında oxuyan kursantlar bu tədbirlərdə fəal iştirak edirlər. Belə turnir və birinciliklərin keçirilməsi gələcəyin zabitlərinin vətənpərvərlik ruhunda böyümələrinə müsbət təsir göstərir.*

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təşkilatçılığı ilə Hərbi liseydə Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsinə həsr olunmuş bölüklərarası hərbiləşdirilmiş idman yarışı keçirildi.

Birincilik uğrunda 9 komanda mübarizə aparırdı. Beynəlxalq qaydalara uyğun olaraq dairəvi sistem üzrə keçirilən birincilik həm komanda, həm də fərdi xarakter daşıyırdı.

5 mərhələdən - 100 metr məsafəyə qaçış, qumbaraatma, uzunluğa tullanma, turnikdə dartınma və kəndirdartma mərhələlərindən ibarət olan birinciliyin gedişini diqqətlə izlədik. Yarış davam edir, kursantlar mərhələlərdə çalışır, hakimlər xalları hesablayır... Yarışa böyük həvəslə qatılan kursantların üz-gözündən sevinc yağırdı.

...Komandalarını irəli çıxarmaq istəyən kursantlar böyük əzmkarlıqla mübarizə aparırdılar. Məqsəd yalnız qələbə qazanmaq idi. Cəld və çevik hərəkətlərindən hiss olunurdu ki, onlar bu yarışa ciddi hazırlaşıblar.

Nəhayət, gün ərzində davam edən yarışa yekun vuruldu. Hakimlər tərəfindən ballar hesablandı və nəticələr elan olundu. Məlum oldu ki, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsinə həsr olunmuş turnirin qalibi adını 5-ci bölüyün kursantları qazanıblar. Bütün mərhələlərdən uğurla keçən komanda 47 xal toplayaraq rəqiblərini xeyli arxada qoyub. 2-ci yerə 6-cı bölüyün, 3-cü yerə isə 2-ci bölüyün şəxsi heyəti yüksəlib.

Hamının böyük sevincinə səbəb olan Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsinə həsr olunmuş hərbiləşdirilmiş idman yarışı böyük təntənə və alqış sədaları ilə başa çatdı.

Bu günlərdə yarışın qalibləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası rəhbərliyi tərəfindən fəxri fərman, kubok və qiymətli hədiyyələrlə mükafatlandırıldı. Qaliblərə kubok, fəxri fərman və qiymətli hədiyyələri Konfederasiyasının nümayəndəsi Xoşqədəm Bağırova və C.Naxçıvanski adına Hərbi Liseyin Həmkarlar Təşkilatının sədri, Azərbaycan dili və ədəbiyyat müəllimi Sahib Əsədov təqdim etdilər.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# Ermənilər Günnüt kəndi istiqamətində təxribata əl atıb

İşğaldan azad edilmiş Günnüt kəndi istiqamətində erməni silahlı birləşmələri növbəti təxribata əl ataraq gecə saatlarından səhərədək açılan atəşlərlə yeni əldə etdiyimiz ərazilərimizi yandırmağa çalışıblar, lakin külək Ermənistan istiqamətinə əsdiyinə görə baş verən yanğın sadə erməni kəndlilərinin təsərrüfatına ziyan vurub.

Erməni kriminal rejimi və hərbi dairələrinin gecədən səhərədək törətdikləri təxribatlar nəticəsində kasıb erməni əhalisinin Günnüt kəndi yaxınlığındakı minbir zəhmətlə əkib-becərdiyi sahələrə od düşüb. Azərbaycan dəfələrlə bəyan edib ki, bizim hərbi gücümüz mülki erməni əhalisinə qarşı yönəlməyib. Azərbaycan əsgəri düşmənin təxribatlarına cavab olaraq nəzarətindəki ermənilərə məxsus buğda sahələrini yandırmaq imkanına malik olsa da, heç vaxt buna əl atmır. Qarşı tərəfdən fərqli olaraq Azərbaycan əsgəri çörəyə hörmət əlaməti kimi taxıl zəmilərini və digər təsərrüfat sahələrini yandırmır. Düşmən isə əksinə, təxribatlarından əl çəkmir. Əsgərlərimiz ərazilərimizdəki yanğını tamamilə söndürüblər. Eyni zamanda Azərbaycan əsgəri ermənilərə yanğının söndürülməsi üçün də şərait yaradıb. Əlahiddə Ümumqoşun Ordunun bölmələri əməliyyat şəraitinə tam nəzarət edir və sadə erməni əhalisinin təsərrüfatlarına heç bir ziyan yetirmir. Törədilən təxribatların səbəbkarı erməni kriminal hərbi-siyasi rejimidir.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Topogeodeziya və hidroqrafiya ixtisası üzrə toplantı keçirilib



2018-ci ilin hazırlıq planına əsasən, Naviqasiya və Kartoqrafiya İdarəsində topogeodeziya təminatının təşkili və hidroqrafiya işi üzrə ixtisaslı zabitlərlə toplantı keçirilib.

Plana əsasən idarənin mütəxəssis heyəti tərəfindən topogeodeziya avadanlıqlarının və Coğrafi Analiz Sistemi proqramının funksiyaları barədə təlim məşğələləri təşkil edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, məşğələlərdə Coğrafi Analiz Sistemi proqramında rəqəmsal xəritələr və üç ölçülü modellərlə işləmə qaydası, məlumatların təhlil edilməsi, əməliyyatlarda proqramın əsas funksiyaları barədə geniş məlumat verilib, eləcə də xüsusi avadanlıqlardan istifadə edilməklə ərazidə ölçmə işlərinin aparılması praktiki olaraq nümayiş etdirilib.

# Azərbaycan Ordusunun 100 illiyinə həsr olunmuş üzgüçülük estafeti

*Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Ordusunun 100 illiyinə həsr olunmuş üzgüçülük üzrə estafeti keçirildi. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin, Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin əməkdaşlığı ilə keçirilən yarışda Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizlik Xidmətinin, Dövlət Sərhəd Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin və Su İdmanı Sarayının hər biri 14 idmançı ilə təmsil olunurdu.*

İştirakçılar Böyük Zirə adasından Dənizkənarı Park arasında 10 kilometr məsafədə 8 nöqtəni qət etdilər.

Yarışdan sonra təntənəli mükafatlandırma mərasimi təşkil olundu.Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səslənməsilə başlandı. Nəticələrə əsasən 1-ci yerə Daxili İşlər Nazirliyinin, 2-ci yerə Su İdmanı Sarayının, 3-cü yerə Dövlət Sərhəd Xidmətinin, 4-cü yerə Müdafiə Nazirliyinin, 5-ci yerə Dövlət Təhlükəsizlik Xidmətinin, 6-cı yerə Fövqəladə Hallar Nazirliyinin idmançıları layiq görüldülər. Gənclər və İdman naziri Azad Rəhimov, Dövlət Təhlükəsizlik Xidmətinin rəisi general-leytenant Mədət Quliyev və başqaları medal və diplomları sahiblərinə təqdim etdilər.

Müdafiə Nazirliyinin Hərbi Dəniz Qüvvələri və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi fəxri fərmanlarla təltif edildilər.

Tədbir xatirə şəkillərinin çəkilməsindən sonra başa çatdı.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

# İnşa və qiraət müsabiqələrinin qaliblərinə mükafatlar təqdim olundu



*Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası İcraiyyə Komitəsinin Cəmşid Naxçıvanski adına Hərbi Lisey ilə 2014-2019-cu illər üçün mədəni hamilik üzrə tədbirlər planına əsasən, bu günlərdə hərbi təhsil ocağında "Vətənə xidmət edirik" mövzusunda inşa və bədii qiraət müsabiqəsi keçirildi.*

Vətənpərvərlik mövzusunda inşa müsabiqələrinin keçirilməsi uzun illərdir ki, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə ənənəyə çevrilib. Təhsil ocağının rəhbərliyi kursantların hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasını daim diqqət mərkəzində saxlayır. Sabahımızın zabitləri olacaq kursantlar isə belə yarış və müsabiqələrdə bacarıqlarını, biliklərini nümayiş etdirərək müsbət nəticələr göstərməyə çalışırlar. Hər il olduğu kimi, bu il də inşa və bədii qiraət müsabiqələri gərgin mübarizə şəraitində keçdi və maraqlı anlarla yadda qaldı.

"Azərbaycan əsgəri" mövzusunda kursantlar arasında bədii qiraət müsabiqəsi iştirakçılarının peşəkarlığını münsiflər heyətinin üzvləri Xalq artisti Nurəddin Mehdixanlı, Əməkdar artist Qəmər Məmmədova və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndəsi Xoşqədəm Bağırova qiymətləndirirdilər. Kursantlar qəhrəmanlığı, vətənpərvərliyi tərənnüm edən şeirlər söylədilər. Onlar müsabiqədə qalib gəlmək üçün bütün bacarıqlarını göstərdilər. Hiss olunurdu ki, kursantların ədəbiyyatımıza böyük sevgiləri var. Onlar iştirakçısı olduqları bugünkü müsabiqəni həmişə xoş təəssüratlarla xatırlayacaqlar. Yarışda 19 kursant iştirak edirdi. Onların üzgözündən həyəcan oxunurdu.

...Həyəcanlı dəqiqələr arxada qaldı. Bir saatdan çox davam edən müsabiqə başa çatdı. Münsiflər heyəti xalları hesablamağa başladılar. Nəticələr elan ediləndə məlum oldu ki, qiraət müsabiqəsində birinci yerə kursant Əmrah İsayev, ikinci yerə kursantlar Ramiz Gözəlov, Fərhad Şıxıyev, üçüncü yerə isə kursantlar Abbas Adıgözəlov, Vaqif Şükürov və Samir Əmənov çıxıblar.

İnşa müsabiqəsində 30-dan çox kursant iştirak edirdi. Müsabiqə başa çatandan sonra məlum oldu ki, kursant Toğrul Yusifzadə "Aprel döyüşlərini unutmadıq" mövzusunda yazdığı inşa ilə birinci pilləyə yüksəlib. Kursant Nihad Vəliyev "Qələbəyə hazır olaq" mövzusunda yazdığı inşa ilə ikinci yerə çıxıb. Kursant İqbal Xalidov "Son illərdə orduya verilən qiymət" mövzusunda yazdığı inşa ilə üçüncü olub.



Bu günlərdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi tərəfindən inşa və bədii qiraət müsabiqəsinin qalibləri fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırıldılar. Mükafatları qaliblərə Konfederasiyasının nümayəndəsi Xoşqədəm Bağırova, C.Naxçıvanski adına Hərbi Liseyin Həmkarlar Təşkilatı komitəsinin sədri, Azərbaycan dili və ədəbiyyat müəllimi Sahib Əsədov təqdim etdilər.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# Veteranlar təşkilatı hərbi hissədə tədbir keçirdi

Müsəlman Şərqində ilk parlamentli respublikanın və onun ordusunun yaranmasının 100 illiyi münasibətilə Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin Kəlbəcər rayon şöbəsi də hərbi hissələrdə silsilə tədbirlər həyata keçirir. Bu günlərdə təşkilatın ön xətdə yerləşən "N" hərbi hissəsində 100 illik yubiley münasibətilə həyata keçirdiyi tədbir də öz möhtəşəmliyi ilə yadda qaldı.

Tədbirdə hərbi hissənin rəhbərliyi, ictimai təşkilatın nümayəndələri, ziyalılar və incəsənət xadimləri yaxından iştirak edirdilər.

Polkovnik-leytenant Vüqar İspəndiyarov tədbiri açıq elan edərək son illər ərzində Azərbaycan Ordusunun hərbi potensialının və müdafiə qabiliyyətinin xeyli artdığını, eyni zamanda ordu quruculuğu istiqamətində ardıcıl surətdə dünya təcrübəsi nəzərə alınmaqla mühüm əhəmiyyətli tədbirlərin həyata keçirildiyini diqqətə çatdırdı. Zabit onu da qeyd etdi ki, 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar Azərbaycan Ordusunu dünyanın ən qüdrətliləri sırasına daxil olmasına imkan yaradıb. "Onun nəticəsidir ki, Azərbaycan Ordusu Ali Baş Komandanın əmrinə əsasən, istənilən an düşmənə sarsıdıcı zərbə vuraraq, torpaqlarımızı işğaldan azad etmək iqtidarındadır".

Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyi Kəlbəcər rayon şöbəsinin sədri Ramiz Əliyev çıxış edərək bildirdi ki, Vətən - bir millətin illər uzunu yaşadığı, adətinin, ənənəsinin, varlığının, şüurunun torpağı ilə birləşdiyi məkandır. Vətən xüsusi sevgi və hörmətə layiq müqəddəs torpaqdır. Natiq onu da qeyd etdi ki, Vətəni sevmək ona verənliyinin təminatçısı onun ordusudur. Sevindirici haldır ki, son illər ərzində ölkəmizdə ordu quruculuğu yolunda böyük nailiyyətlər əldə edilib. Azərbaycan Ordusunun formalaşması isə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Bu gün Azərbaycan Ordu-



səcdəgah kimi baxmaq, torpağa, öz xalqına qəlbən bağlı olmaq hər bir zabitin, əsgərin, hərbi qulluqçunun vətəndaşlıq borcudur. Sevindirici məqam odur ki, Azərbaycan Ordusunun şəxsi heyəti üzərinə düşən vətəndaşlıq borcunu layiqincə yerinə yetirir və Ali Baş Komandanımızın əmri ilə hər an torpaqlarımızı erməni işğalçılarından azad etməyə hazırdır. Bu gün Azərbaycan Ordusuna göstərilən diqqət və qayğı onu deməyə əsas verir ki, qüdrətli ordumuz tezliklə Vətən torpaqlarını düşməndən xilas edəcək.

"Hər bir müstəqil dövlətin suverenliyinin təminatçısı onun ordusudur" ... sunun quruculuğu prosesi davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. Hərtərəfli güclənən, hərbi qüdrəti, döyüş qabiliyyəti artan Azərbaycan Ordusu böyük inkişaf yolu keçib və NATO standartları səviyyəsində formalaşıb. Bu ordu işğal olunmuş ərazilərimizi düşməndən azad etməyə və ölkəmizin ərazi bütövlüyünü qorumağa hər zaman hazırdır", - deyə zabit Əflatun Məsimov bildirdi.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# "LORA" operativ raket kompleksi

"LORA" taktiki-operativ raket kompleksi İsrailin "İsrael Airstaft İndustries" şirkəti tərəfindən hazırlanan ən müasir raket kompleksidir.

"LORA" kompleksi yerüstü və dəniz variantında istifadə edilə bilər. Müasir kompleks yüksək dəqiqliklə düşmənin infrastruktur elementlərini (rabitə xətlərini, elektrik stansiyalarını və s.), düşmən ərazilərinin dərinliyində yerləşən hava hücumundan müdafiə batareyalarını, hərbi bazaları məhv etməyə qadirdir. Raket bütün uçuş trayektoriyası üzrə idarə olunur. Raketlər hermetik nəqliyyat konteynerlərində yerləşdirilir və səhra şəraitində yeddi il müddətində saxlanılır. Raket




həm GPS sistemi, həm də operator tərəfindən idarə olunur.

Taktiki-texniki xüsusiyyətlərinə gəldikdə isə raketin çəkisi 1,7 ton, uzunluğu 5 metr, diametri 610 mm, uçuş uzaqlığı 250-300 kilometr, trayektoriyanın hündürlüyü isə 45 kilometrdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Bolqarıstan televiziyası Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən bəhs edən veriliş yayımlayıb

Bolqarıstanın BTV televiziya kanalında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən bəhs edən geniş veriliş yayımlanıb.

AZƏRTAC xəbər verir ki, verilişdə qoşunların təmas xəttindəki vəziyyət, erməni vəhşiliyi, Xocalı soyqırımı və digər məqamlar, o cümlədən münaqişə ilə bağlı Azərbaycanın mövqeyi barədə ətraflı məlumat verilir.

Qeyd edək ki, Bolqarıstan erməniləri bu verilişə görə onu hazırlayan jurnalistə və BTV televiziyasına qarşı hücuma keçib, təhdidlərə başlayıblar.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Şəmiyev Zamik Xalıqverdi oğluna verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 448
Nüsxə 3525